**Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar, demokratik prinsiplərin inkişafına xüsusi önəm verilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin daim diqqət mərkəzində saxlanılması, dövri olaraq əfv sərəncamlarının imzalanması, azad və ədalətli seçkilərin keçirilməsi və digər amillər ölkəmizin dünya birliyindəki reytinqini getdikcə yüksəldir.**



# Azərbaycanın dünyadakı reytinqi seçkidən-seçkiyə daha da yüksəlir

Demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını təşkil edir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası bu sahədə əsas prioritetləri müəyyən etmişdir. Bundan sonra qəbul edilən qanunvericilik aktları da əlavə olunmaqla respublikamızda demokratik, şəffaf, azad və ədalətli seçkilərin keçirilməsi üçün mükəmməl hüquqi baza yaradılıb.

2003-cü ilin mayında qəbul edilən Azərbaycan Respublikasının Seçki Məcəlləsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və bu gün də demokratik seçkilərin keçirilməsində əsas sənəd kimi qəbul edilir. Venesiya Komissiyasının və ATƏT-in DTİHB-nin yekun rəyində bildirilmişdir ki, Seçki Məcəlləsi seçkilərin və referendumun keçirilməsi üçün beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutur.

Cəmiyyətimizin gündən-günə inkişafı, yeni demokratik dəyərlərə üstünlük verilməsi qanunvericiliyin, o cümlədən Seçki Məcəlləsinin təkmilləşdirilməsi zərurətini yaratmışdır. Bu baxımdan, Azərbaycan Respublikasının Seçki Məcəlləsi prezident, parlament və bələdiyyə seçkilərinin keçirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Bu vaxta qədər keçirilən seçkilərin beynəlxalq aləmdə yüksək qiymətə layiq görülməsinin əsas səbəblərindən birinin ölkə başçısının siyasi iradə nümayiş etdirməsi ilə yanaşı, həm də zəngin hüquqi bazanın olmasıdır. Növbəti seçkilərə hazırlıqla əlaqədar monitorinq keçirən beynəlxalq təşkilatların nümayəndələri öz müşahidələrindən razılıqlarını bildirir və seçkilərin demokratik şəkildə başa çatacağına əminliklərini ifadə edirlər. Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) təsis etdiyi Seçki Müşahidə Missiyasının üzvləri də bu qənaətdədirlər. Nümayəndə heyəti keçirdiyi görüşlərdə seçkilərə hazırlıq işlərini yüksək dəyərləndirib.

İndiyədək keçirilən seçkilərin nəticələri də təsdiqləyir ki, səsvermənin Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrin tələbinə, Avropa standartlarına uyğun aparılması dövlətin prioritet vəzifələrindən biridir. Bunu beynəlxalq müşahidəçilər də təsdiqləyirlər. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) təsis etdiyi Seçki Müşahidə Missiyasının rəhbəri Piter Teyler də respublikamızda keçirdiyi görüşlərdə seçkiyə hazırlıq işlərini diqqətlə izlədiklərini bildirib. Qeyd edib ki, Seçki Müşahidə Missiyası seçki prosesinin bütün əsas aspektlərini izləyəcək və seçkilərin ATƏT-in öhdəlikləri, demokratik seçkilər üzrə digər beynəlxalq standartlar, eləcə də milli qanunvericiliyə uyğun həyata keçirilməsini qiymətləndirəcək.

Rusiya Federasiya Şurasının Xarici İşlər Komitəsinin rəhbəri Konstantin Kosaçev, Türkiyənin Qlobal İdarəçilik və İnkişaf Təşkilatının baş direktoru Gözde Dizdar, MDB Yəhudi Konqresinin sədri, xoşməramlı səfir, politoloq Aleksandr Şapiro Suliman, həmçinin digər politoloq və beynəlxalq müşahidəçilər hazırlıq işlərini yüksək qiymətləndirərək, parlament seçkilərinin beynəlxalq norma və qaydaların tələblərinə uyğun keçiriləcəyinə əminliklərini bildiriblər. Onların rəylərində qeyd edilir ki, hazırda seçkilərə hazırlıq prosesi qanunvericiliyin tələblərinə uyğun gedir və hər hansı bir narahatlıq müşahidə olunmur.

Əcnəbi politoloqlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları yüksək dəyərləndirir, bunun Azərbaycanın beynəlxalq aləmə inteqrasiya etdiyinin bir daha təsdiqi olduğu qənaətinə gəlirlər. Azərbaycanda keçiriləcək parlament seçkilərinin ölkədə aparılan islahatların davamı olduğunu vurğulayan əcnəbi politoloqlar demokratik cəmiyyətlərdə belə islahatların zəruriliyini qeyd ediblər. Bildirilib ki, Azərbaycan bu islahatlarla demokratik prinsiplərin inkişafına daim diqqət ayırdığını bir daha sübuta yetirdi.

Qarşıdan gələn parlament seçkilərində nüfuzlu beynəlxalq təşkilatların "exit-poll" keçirmələri ilə əlaqədar müraciətlər daxil olmaqdadır. Amerika Birləşmiş Ştatlarının Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası Amerika Birləşmiş Ştatlarının "AJF&Associates İnc". təşkilatı ilə birgə keçirəcəyi "exit-poll" 118 dairə üzrə 1053 seçki məntəqəsini əhatə edəcək. Qeyd edək ki, həmin təşkilatlar bundan əvvəl də ölkəmizdə keçirilən seçkilərdə "exit-poll" sorğusu aparıblar. "Exit-poll"çuların davranış qaydaları dünya standartlarına uyğun şəkildədir. "Exit-poll" keçirmək üçün 47 nəfər supervayzer – biznesin müxtəlif sahələrində, dövlət strukturlarında, elm və təhsil müəssisələrində inzibati vəzifə daşıyıcıları, həmçinin 2106 müsahidəçi cəlb olunub.

Göründüyü kimi, parlament seçkilərinə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir. Hazırda dairə və məntəqə seçki komissiyalarının üzvləri üçün maarifləndirmə tədbirləri keçirilir. Ekspertlər də qeyd edirlər ki, maarifləndirici treninqlər Milli Məclisə seçkilərin daha şəffaf və qanunamüvafiq keçirilməsi baxımından çox önəmlidir. Bu proqram çərçivəsində, MSK-nın müvafiq təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri məlumatlandırılır.

Təlimlərdə, əsasən, aşağı seçki komissiyaları tərəfindən seçki hüququnun qorunması mexanizmlərindən bəhs olunur. Treninqlər məntəqə seçki komissiyaları sədrlərinin peşəkarlığının yüksəldilməsində, seçkilər sahəsində bilik, bacarıq, vərdişlərinin daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır.

İştirakçılar seçki məntəqəsinin açılması, seçkilərə hazırlıq, onun keçirilməsi, səslərin hesablanması prosesi və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili məsələləri ilə bağlı məlumatlandırılırlar. Bununla bağlı aşağı seçki komissiyalarının üzərinə düşən vəzifələr şərh olunur.

Faktlar da təsdiqləyir ki, ölkəmizin müstəqillik tarixinə daha bir demokratik seçki əlavə olunacaq. Belə seçkilər Azərbaycanın dünya birliyindəki mövqeyini getdikcə möhkəmləndirir, reytinqini daha da yüksəldir.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**